“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 iyul 2015-ci il № 51 (1967) Qiyməti 25 qəpik


# Birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılar, onların məşqçiləri, idman ictimaiyyətinin nümayəndələri və xarici tərəfdaşlarla görüş keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak edib

***İyunun 29-da Birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri, Azərbaycan idman ictimaiyyətinin nümayəndələri və Oyunların təşkilində xidmətləri olan xarici tərəfdaşlarla görüş keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər. Əvvəlcə Birinci Avropa Oyunlarının möhtəşəm açılış və bağlanış mərasimlərini, yarışlarda ən yaddaqalan məqamları, o cümlədən Azərbaycan idmançılarının çıxışlarını əks etdirən videoçarx nümayiş olundu.***

***Dövlətimizin başçısı mərasimdə nitq söylədi.***




- Hörmətli Avropa Olimpiya Komitələrinin prezidenti cənab Patrik Hikki.

Hörmətli xanımlar və cənablar.

Əziz idmançılar.

Bakıda Birinci Avropa Oyunları uğurla başa çatıb. Bu münasibətlə mən sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Birinci Avropa Oyunları ölkəmiz və Avropa üçün tarixi hadisədir. Ölkəmiz üçün ona görə tarixi hadisədir ki, bu günə qədər Azərbaycanda bu səviyyədə beynəlxalq idman yarışı keçirilməmişdir. Avropa üçün isə ona görə ki, Avropada başqa qitələrdən fərqli olaraq heç vaxt qitə oyunları keçirilməmişdir.

2012-ci ilin dekabrında Avropa Olimpiya Komitələrinin qərarı ilə birinci Oyunların keçirilməsi qərarı qəbul edilmişdir və bu şərəfli missiya bizim üzərimizə düşmüşdür. Bu qərara görə, bu qərarın qəbul edilməsində iştirak etmiş bütün insanlara və ilk növbədə Avropa Olimpiya Komitələrinin prezidenti cənab Patrik Hikkiyə öz adımdan və bütün Azərbaycan xalqı adından bir daha minnətdarlığımı bildirmək istəyirəm. Məhz cənab Patrik Hikkinin təşəbbüsü ilə bu Oyunlar baş tutdu. Bu Oyunların keçirilməsində iştirak etmiş bütün insanlara bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu qərardan sonra Azərbaycanda gərgin iş başlamışdır. Təşkilat Komitəsi, Beynəlxalq Əməliyyat Komitəsi yaradılmışdır. Hamımız yaxşı dərk edirdik ki, bu Oyunları yüksək səviyyədə keçirmək üçün gərək bütün ictimaiyyət, bütün Azərbaycan vətəndaşları buna fəal dəstək olsunlar. Belə də oldu. Məşəlin qarşılanması mərasimlərində iki milyona yaxın Azərbaycan vətəndaşı iştirak etmişdir. Bu böyük ictimai dəstək bizə güc və inam verdi ki, biz bu Oyunları ən yüksək səviyyədə keçirək.

Yadımdadır, qərar qəbul olunandan sonra mən xalqa müraciət etdim və xalqı təbrik etdim. Eyni zamanda, dedim ki, biz çalışacağıq bu Oyunları ən yüksək səviyyədə keçirək. Şadam ki, bu, belə də oldu. Doğrudan da, Birinci Avropa Oyunları tarixdə həm də ona görə qalacaq ki, bu Oyunlar ən yüksək dünya səviyyəsində keçirilmişdir.

Bu Oyunların keçirilməsi üçün cəmi iki il yarım vaxtımız var idi. Təsəvvür etmək çətin deyil ki, biz nə qədər gərgin iş gördük. Gərgin şəraitdə, vaxt azlığı. Əlbəttə ki, bu böyük məsuliyyət bizim üzərimizdə idi. Avropa Oyunlarının standartları o vaxt mövcud deyildi. Əslində, Oyunların standartlarını biz birlikdə Azərbaycanda yaratdıq və bu, ən yüksək standartlardır.

Məşəlin alovlandırılması mərasimi də çox yaddaqalan oldu. Mən bir daha Avropa Olimpiya Komitələrinin prezidenti cənab Hikkiyə minnətdaram ki, onun və Avropa Olimpiya Komitələrinin qərarı ilə gələcək Oyunların məşəli məhz Azərbaycanda, Bakıda Atəşgah məbədində yandırılacaqdır.

Oyunların hazırlanmasında Beynəlxalq Əməliyyat Komitəsinin - BEGOC-un rolunu yüksək qiymətləndirirəm. Orada işləyən peşəkar insanlar, əlbəttə ki, öz təcrübələrini, biliklərini Azərbaycana gətirmişlər, bizimlə bölüşmüşlər. Onlarsız bu Oyunları bu səviyyədə keçirmək mümkün olmayacaqdı.

Bilirəm ki, onlar da bu aylar, illər ərzində Azərbaycanı ürəkdən sevmişlər. Azərbaycanın bütün imkanlarını, xalqın əhval-ruhiyyəsini və ölkəmizdə gedən müsbət prosesləri görərək onlar bizim xalqımıza, dövlətimizə çox bağlı oldular. Əminəm ki, bu xatirələr onların qəlbindən heç vaxt silinməyəcək. Çünki onların həyatlarının bir hissəsi Azərbaycanda keçibdir. Əminəm ki, biz gələcəkdə də onlarla tez-tez görüşəcəyik.

Könüllülərin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Oyunların keçirilməsinin yükünün böyük hissəsi onların üzərinə düşmüşdür. Konüllülər bir daha onu göstərdi ki, ölkəmizin çox böyük potensialı, insan kapitalı var. Mən 2003-cü ildə Prezident kimi fəaliyyətə təzə başlayanda demişdim ki, bizim əsas vəzifəmiz iqtisadi kapitalı, daha doğrusu, "qara qızıl"ı insan kapitalına çevirməkdir. Bugünkü gənclər müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir. İyirmi minə yaxın könüllü, - onların böyük əksəriyyəti yerli uşaqlardır, insanlardır, gənclərdir, - gecə-gündüz çalışmışdır. Onlar gecə-gündüz peşəkarlıqla, ustalıqla, məharətlə çalışaraq idmançılara, qonaqlara böyük mədəniyyət, hörmət, Azərbaycan xalqına xas olan qonaqpərvərlik və mehribanlıq göstərmişlər. Bu günlər ərzində xarici qonaqlarla təmaslar əsnasında könüllülər haqqında daim bu xoş sözləri eşidirəm. Doğrudan da, bizim gələcəyimiz etibarlı əllərdədir. Könüllülər bu Oyunlardan sonra əminəm ki, cəmiyyətdə öz layiqli yerlərini tutacaqlar. Onlar bizim gələcəyimizdir. Azərbaycanın gələcək inkişafı gənclərin əlində olmalıdır. Gənclər bilikli, savadlı, peşəkar və vətənpərvər olmalıdırlar. Necə ki, bizim könüllülərimiz peşəkar, bilikli və vətənpərvərdirlər.

Mən bu gün Təşkilat Komitəsinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Çünki Təşkilat Komitəsinin çox böyük və gərgin fəaliyyəti olmuşdur. Təbii ki, ictimaiyyət tam şəkildə bu fəaliyyətin nədən ibarət olduğunu bilə bilməz. Çünki Təşkilat Komitəsinin tədbirləri mütəmadi qaydada keçirilirdi. Ancaq ictimaiyyətə o qədər də geniş məlumatlar verilmirdi. Hər bir xırda məsələ üzrə bütün işlər ən yüksək səviyyədə görülmüşdü və məhz buna görə Oyunların keçirilməsində heç bir problem yaşanmadı.

Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O, bu Oyunların keçirilməsinə çox böyük töhfə vermişdir. Deyə bilərəm ki, bu Oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur. Mən Təşkilat Komitəsinin tərkibini müəyyən edərkən tam əmin idim ki, bu tərkibdə bu Komitə ən yüksək nəticə göstərə bilər. Çünki burada həm təcrübə, həm peşəkarlıq və ən önəmlisi xalqa, dövlətə sevgi, məhəbbət var idi və var. Bu, ümumiyyətlə, ölkəmizin əldə etdiyi uğurların əsas şərtidir. Bəzən məndən soruşurlar ki, Azərbaycan sürətlə inkişaf edir, - baxmayaraq bölgədə, dünyada, bizim qitədə yaşanan proseslər o qədər də ürəkaçan deyil, - nədir bunun sirri?

Bu barədə çox danışmaq olar. Ancaq mən hesab edirəm əsas məsələ ondan ibarətdir ki, biz dövlətimizi, xalqımızı hər şeydən çox sevirik. Bu məhəbbət, bu vətənpərvərlik, bu peşəkarlıq və işimizə sədaqət, əlbəttə, imkan verir ki, Azərbaycan sürətlə inkişaf etsin və bizim gələcəkdə də çox böyük qələbələrimiz olacaqdır.

Əlbəttə, bu gün mən idmançıların uğurlarını, qələbələrini xüsusilə qeyd etmək istəyirəm. Təbii ki, biz bu Oyunları yüksək səviyyədə keçirməli idik və keçirdik. Bu, bir daha ölkəmizin potensialını, gücünü göstərdi. Biz bu potensialı, əlbəttə ki, bilirdik. Bu potensialı biz yaratmışıq. Cəmi 24 il ərzində Azərbaycan elə zirvələrə qalxıb ki, bəzi ölkələrə bu səviyyəyə qalxmaq üçün bəlkə yüzilliklər lazımdır. Bu Oyunlar sadəcə olaraq bizə imkan verdi ki, bu potensialı dünyaya, Avropaya, eləcə də öz ictimaiyyətimizə nümayiş etdirək. Həm insani potensial, həm dövlətimizin iqtisadi potensialı, həm cəmiyyətdə hökm sürən xoş əhval-ruhiyyə, xalqla iqtidar arasındakı birlik, milli ideyalar ətrafında birləşməyimiz, milli həmrəylik - məhz budur bizim uğurlarımızın əsas şərtləri.

Bu Oyunlar imkan verdi ki, biz özümüzü göstərək. Bizi istəməyən qüvvələr bəzi hallarda bunu bizə irad tuturdular ki, Azərbaycan Oyunları keçirməklə özünü göstərmək istəyir. Bu, təbiidir. Əlbəttə, hər bir ölkə özünü göstərmək istəyir. İnkişaf etmiş ölkələr, hansılar ki, dəfələrlə bu səviyyəli tədbirləri keçirmişlər. Onlar da özlərini göstərmək istəmişlər. Yəni, burada heç bir qəbahət yoxdur. Bəli, bizim göstərə biləcəyimiz nümunələr həddindən artıq çoxdur. Biz Azərbaycanı dünyaya müasir, dinamik, demokratik, inkişaf edən, öz mədəniyyətinə, tarixinə bağlı olan xalq kimi, dövlət kimi göstərmişik. Bu Oyunlar cəmiyyətdə nadir bir əhval-ruhiyyə yaratdı. Bu, əvvəllər də var idi. Yəni, cəmiyyətimiz milli ideyalar, milli maraqlar uğrunda çox fəal hərəkət edir. Ancaq bu Oyunlar xalqımızı bir daha birləşdirdi. Bir daha bizi qürurlandırdı ki, görün, biz nəyə qadirik.

İdmançıların uğurlarına qayıdarkən bu, xüsusilə böyük əhəmiyyət daşıyır. Çünki onların qələbələri bu Oyunları daha da böyük zirvəyə qaldırdı. Mən tam əminəm ki, bəlkə burada oturanlar və ümumiyyətlə, ictimaiyyət arasında yəqin müxtəlif fərziyyələr var idi ki, bizim komandamız neçənci yeri tutacaq. Amma bəlkə heç kim inanmırdı ki, bu, ikinci yer olacaqdır. Bu, tarixi qələbədir. Azərbaycan idmanının, Azərbaycan dövlətinin qələbəsidir. Əziz idmançılar, mən sizi öpürəm, bağrıma basıram. Sağ olun.

Bu günlər ərzində hamımız yəqin ki, bir neçə dəfə kövrəldik. Hamımızın elə unudulmaz anları olmuşdur ki, bunu sözlə təsvir etmək çətindir. Qələbə sevinci, qürur hissi, idmançılarımızın rəşadəti, gücü, xalqımızın birliyi, bütün bunlar heç vaxt yadımızdan çıxmayacaq.

Azərbaycan bu gün zirvədədir. Azərbaycan bu gün müstəqil, inkişafda olan güclü dövlət kimi uğurla irəli gedir. Bizim siyasi, iqtisadi sahələrdə, diplomatik arenalarda, idman yarışlarında böyük qələbələrimiz var. Biz haqlı olaraq, bununla fəxr edirik. Fəxr edirik ki, biz Azərbaycan vətəndaşıyıq. Biz fəxr edirik ki, cəmi 24 il ərzində Azərbaycan xalqının istedadı, zəhməti hesabına, düşünülmüş siyasət hesabına güclü dövlət qurmuşuq.

İdman hər bir ölkənin ümumi inkişafını göstərir. Əgər idmanda böyük nəticələri əldə edən ölkələrin siyahısına baxsanız, - bu Oyunlar da bunun bariz nümunəsidir, - görərsiniz ki, birinci sıralarda ancaq hərtərəfli cəhətdən inkişaf etmiş ölkələrdir. Çünki kasıb, inkişaf etməyən, geridə qalmış ölkələrdə çox nadir hallarda böyük idman nəticələri olur.

İdmanda əldə edilən uğurlar müəyyən bir baza əsasında yaranır. Bu bazanı biz yaratmışıq. Artıq neçə ildir ki, biz idmanın inkişafı ilə çox ciddi məşğul oluruq. İdmançılar, klublar, federasiyalar, idman cəmiyyətləri, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, biz hamımız birlikdə idmanı inkişaf etdiririk. Təsadüfi deyil ki, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında bizim idmançılarımız ən yüksək kürsüyə qalxırlar. Bu dəfə isə bu Oyunlar Azərbaycan idmanının, Azərbaycan dövlətinin təntənəsidir.

Biz gələcəkdə də uğurla inkişaf edəcəyik. Məndə bu məsələ ilə bağlı heç bir şübhə yoxdur. Azərbaycan inkişaf yolu ilə gedəcək. Gələcəkdə bizim böyük uğurlarımız və qələbələrimiz olacaqdır. Bu yolda bütün Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram.

# Həqiqi hərbi xidmətə çağırış başlayıb

***Azərbaycan Prezidentinin müvafiq sərəncamına uyğun olaraq, 2015-ci il iyulun 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb.***

Bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaq.

Sərəncama əsasən, 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2015-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Sərəncama uyğun olaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

Prezident İlham Əliyev mayın 29-da Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalamışdı.

**AZƏRTAC**

# Britaniya XİN: Rəsmi London Dağlıq Qarabağda yaradılmış rejimi tanımır və bu mövqe dəyişməz qalır

İyulun 1-də Böyük Britaniyanın Azərbaycandakı səfiri İrfan Siddiq Xarici İşlər Nazirliyinə dəvət olunub.

Xarici işlər nazirinin müavini Xələf Xələfov Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində yaradılmış qondarma separatçı rejimin başçısı kimi özünü təqdim edən Bako Saakyan adlı şəxsin Böyük Britaniyaya səfəri və "Chatham House - Kral Beynəlxalq Münasibətlər İnstitutu"nda iyulun 8-də keçirilməsi nəzərdə tutulan tədbirdə iştirak edəcəyi ilə bağlı Azərbaycan Respublikası Hökumətinin qəti etirazını bildirib. Bu kimi halların Azərbaycan ilə Böyük Britaniya arasında mövcud olan dostluq və strateji münasibətlərin ruhuna uyğun olmadığı vurğulanıb, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş addım kimi qiymətləndirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfir İrfan Siddiq Böyük Britaniyanın Dağlıq Qarabağdakı rejimi tanımadığını və onunla heç bir əlaqəsinin olmadığını deyərək Azərbaycanın narahatlığı barədə ölkəsinin Xarici İşlər Nazirliyinə məlumat verəcəyini diqqətə çatdırıb.

Həmçinin, Xarici İşlər Nazirliyinin təlimatı əsasında Azərbaycan Respublikasının Londondakı səfirliyi tərəfindən məsələ ilə bağlı Böyük Britaniya Xarici İşlər Nazirliyində görüş keçirilib və müvafiq etiraz məktubu təqdim edilib.

Azərbaycan Respublikasının bu ölkələrdəki səfirliyinin məktubuna cavab olaraq Böyük Britaniya Xarici İşlər Nazirliyinin məktubunda bildirilib ki, Böyük Britaniya Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləyir, Dağlıq Qarabağda yaradılmış rejimi tanımır və rəsmi Londonun bu mövqeyi dəyişməz olaraq qalır. Məktubda separatçı rejimin başçısının Böyük Britaniyaya səfərinin hökumət tərəfindən təşkil edilmədiyi və onun Londonda olacağı müddətdə heç bir hökumət rəsmisi ilə görüşünün olmayacağı xüsusilə vurğulanıb.

# İtaliyanın “İl Giornale” qəzeti: Sarkisyan hökuməti sual altındadır

İtaliyanın "İl Giornale" qəzetinin saytında bu ölkənin "İl Nodo di Gordio" beyin mərkəzinin tədqiqatçısı tərəfindən Cənubi Qafqazdakı son proseslərlə bağlı hazırlanmış yazı yerləşdirilib.

Yazıda qeyd olunur ki, son aylarda mürəkkəb siyasi proseslərin müşahidə olunduğu Cənubi Qafqazda regional balansın pozulması təhlükəsi mövcuddur. Belə ki, Yerevandakı son nümayişlər, Ermənistan-Azərbaycan sərhədində və qoşunların təmas xəttində gərginliyin artması kimi amillər bu bölgəyə daha çox diqqət yetirilməsinin vacibliyini göstərir. Yerevanda elektrik enerjisinin qiymətlərinin qaldırılmasına etiraz olaraq başlamış nümayişlər səngimək bilmir. Son gərginliklər, hətta demək olar ki, üsyana çevrilmək üzrədir. Bu isə Sarkisyan hökumətinin gələcəyini sual altına qoyan həqiqi institusional böhran deməkdir. Təbii ehtiyatlara malik olmayan və iqtisadiyyatı asılı vəziyyətə düşən Ermənistan Qafqazın ən kasıb ölkəsi sayılır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan müəllif bildirir ki, ATƏT-in Minsk Qrupunun və beynəlxalq strukturların səylərinə baxmayraq, problem hələ də həllini tapmayıb. Bu da bir reallıqdır ki, qanlı münaqişə nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Avropa Məhkəməsinin azərbaycanlı məcburi köçkünlərin şikayətləri əsasında "Çıraqov və digərlərinin Ermənistana qarşı" işi üzrə elan etdiyi qərar rəsmi Yerevanın bir daha "İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın müddəalarını pozduğunu göstərir.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub







***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov cəbhəboyu rayonlarda yerləşən birlik, birləşmə və hərbi hissələrdə olublar.***

Müdafiə Nazirliyinin rəhbərliyi ön xətdə yerləşən hərbi hissələrdə düşmənlə üz-üzə səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşüb, onların sosial-məişət şəraiti ilə maraqlanıb, Silahlı Qüvvələr Günü münasibəti ilə təltif olunan hərbi qulluqçulara fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim edib.

Düşmənlə təmas xəttində yerləşən bölmələrdən birində komanda-müşahidə məntəqəsinə baş çəkən Müdafiə nazirinə ərazidəki əməliyyat şəraiti, müdafiə zolağında həyata keçirilən tədbirlər barədə məruzə edilib.

Sonra cəbhə bölgəsində yerləşən bölmələrin şəxsi heyətinin daimi döyüş hazırlıqlarını təkmilləşdirməsi, silah və texnikadan bacarıqla istifadə etməsi, hərbi qulluqçuların peşəkarlıq qabiliyyətinin artırılması məqsədilə yaradılan yeni təlim-atış poliqonu Müdafiə nazirinə təqdim olunub.







Bildirilib ki, idarəetmə məntəqəsi, atış və taktiki sahə, həmlə zolağı, sinif otaqları, o cümlədən müxtəlif yardımçı bölmələrdən ibarət poliqonda müxtəlif iriçaplı atıcı silahlar, minaatanlar, qumbaraatanlar və əl qumbaralarının praktiki istifadəsi ilə həyata keçirilən məşqlərdə əsgərlərə gecə və gündüz şəraitində, mütəmadi döyüş hazırlığı üzrə vərdişlər aşılanır.

Müdafiə Nazirliyinin rəhbərliyi təlim prosesini və döyüş atışlı məşqləri izləyib, döyüş hazırlığının və nizam-intizamın gücləndirilməsi barədə müvafiq göstəriş və tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Cəbhə bölgəsində yeni tikilən daha bir hərbi hissə istifadəyə verilib

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, yeni tikilən və müasir avadanlıqlarla tam təchiz edilən növbəti hərbi hissə istifadəyə verilib.***

Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada yerləşən hərbi hissənin açılışında iştirak edərək yeni inşa edilən qərargah, əsgər yataqxanaları, döyüş texnikası üçün saxlanclar, sıra meydanı, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana, qazanxana kompleksi və digər obyektlərlə tanış olub.











Müdafiə naziri general-polkovnik Zakir Həsənov yeni hərbi hissənin açılışı münasibətilə şəxsi heyət qarşısında çıxış edərkən Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqətin nəticəsi olaraq son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb.

Müdafiə naziri bildirib: "Bu, növbəti dəfə Azərbaycan dövlətinin iqtisadi qüdrətinin təsdiqi və Silahlı Qüvvələrə göstərilən qayğının nəticəsidir.

Bir neçə gün əvvəl Hərbi Dəniz Qüvvələrinin yeni bazasının açılışını həyata keçirdik. Bu, Xəzər dənizində müasir qurğu və avadanlıqlarla təmin edilmiş ən böyük hərbi dəniz bazasıdır. Təntənəli açılış mərasimində çıxış edən Prezidentimiz Silahlı Qüvvələrin fəaliyyətinə yüksək qiymət verdi. O, qeyd etdi ki, ordu günü-gündən inkişaf edir, döyüş hazırlığını artırır və nizam-intizam möhkəmlənir. Dövlətimizin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələr ən müasir döyüş texnikası, silah və sursatla təmin olunur. Bu gün Silahlı Qüvvələrimiz Azərbaycan xalqının və dövlətimizin etimadını doğrultmaq məqsədilə döyüş hazırlığını artırmaq və xidməti yüksək səviyyədə təşkil etməklə işğal olunmuş torpaqlarımızın azad edilməsi vəzifəsini yaxın vaxtda həyata keçirməyə qadirdir.

Prezidentin birmənalı şəkildə dediyi "Rədd olsunlar bizim torpaqlardan. Əgər erməni əsgəri ölmək istəmirsə, Ağdama, Füzuliyə gəlməsin", - sözləri bizim üçün bir göstərişdir və biz bunu layiqincə yerinə yetirməliyik. Çünki bunu bizdən Azərbaycan xalqı gözləyir, Ali Baş Komandan tələb edir".

Daha sonra çıxış edən birlik komandiri general-mayor Hikmət Həsənov göstərilən diqqət və qayğıya görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.







Şəxsi heyət təntənəli marşla tribuna önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib. Sonra Müdafiə naziri hərbi hissədə işlə təmin olunmuş mülki qulluqçularla söhbət edib, müvafiq göstəriş və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Litvaya rəsmi səfəri



***İyulun 1-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Litva Respublikasına rəsmi səfəri başlayıb.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Litvanın Milli Müdafiə naziri cənab Yuozas Olekas ilə görüşüb.

Rəsmi qarşılanma mərasimində protokola uyğun olaraq Müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər.

Hər iki ölkənin Dövlət himni səsləndirildikdən sonra nazirlərin təkbətək görüşü olub.

Təkbətək görüşdən sonra nazirlərin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Görüşdə regional təhlükəsizlik, Silahlı Qüvvələrin inkişafı və ölkələrimiz arasında hərbi əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib.

Litva Respublikasına rəsmi dəvətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Azərbaycanın Müdafiə naziri litvalı həmkarına Cənubi Qafqaz regionundakı hərbi-siyasi vəziyyət, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, qaçqın və məcburi köçkünlərin vəziyyəti barədə ətraflı məlumat verib.

General-polkovnik Zakir Həsənov bildirib: "Bəzi dövlətlər və qurumlar tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həll olunmasına yanaşmada ikili standartların tətbiqi bizi çox narahat edir. Ancaq hamıya bəlli olmalıdır ki, dövlətimizin başçısı cənab İlham Əliyevin dəstəyi ilə Azərbaycan bu gün güclü və qüdrətli, müasir silahla təchiz olunmuş orduya malikdir. Azərbaycan Ordusu işğal olunmuş torpaqları istənilən an azad etməyə hazırdır və qadirdir. Heç kim buna şübhə etməməlidir. Bu yalnız vaxt məsələsidir.

Sülh tərəfdarı olan dövlətlər, o cümlədən bizə dost olan Litva Respublikası təcavüzkara qarşı qəti mövqe nümayiş etdirib işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan ərazisindən çıxarılmasını tələb etməlidirlər".

Sonra Azərbaycan ilə Litva arasında qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

* * *



İyulun 2-də Litva Respublikasında səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov 1991-ci ildə keçmiş Sovetlər birliyindən ayrılaraq Litvanın müstəqillik qazanması uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış Müstəqillik abidəsini ziyarət edərək önünə əklil qoyub.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov Litva Respublikasının Baş naziri cənab Algirdas Butkeviçius ilə görüşüb.

Görüşdə hər iki ölkə arasında əlaqələrin bütün istiqamətlər üzrə müvəffəqiyyətlə inkişaf etdiyi vurğulanıb, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verilib.

İkitərəfli əməkdaşlıq sahəsində yaxşı təcrübənin mövcudluğunu qeyd edən Müdafiə naziri qarşılıqlı əlaqələrin genişləndirilməsinin ölkələrimiz üçün faydalı olduğunu xüsusi vurğulayıb.

Müdafiə naziri çıxışında bildirib: "Biz əminik ki, ölkələrimiz arasında məsləhətləşmələrin aparılması və əməkdaşlığın genişləndirilməsi Avrasiya məkanında sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir".

Tərəflər beynəlxalq terrorizm, ekstremizmin bütün növləri, təcavüzkar separatizm və digər bu kimi beynəlxalq təhlükəsizlik və sabitliyə təhlükə törədən ümumi təhdidləri pisləyib və onlara qarşı mübarizədə beynəlxalq səylərin artırılmasının zəruriliyini xüsusi qeyd ediblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

* * *

Litvada rəsmi səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyulun 2-də bir sıra görüşlər keçirib.

Litva Hərbi Məktəbini ziyarət edən Müdafiə naziri təhsil müəssisəsi ilə tanışlıqdan sonra keçirilən görüşdə ölkələrimizin hərbi təhsil sahəsində əməkdaşlığının genişləndirilməsi istiqamətində böyük imkanların olması, qarşılıqlı təcrübə mübadiləsinin inkişaf etdirilməsi, müxtəlif mövzularda seminarların, kursların və digər tədbirlərin təşkil edilməsi barədə fikir mübadiləsi aparıb.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov NATO Enerji Təhlükəsizliyi Mərkəzində olub.

Müdafiə nazirinə mərkəzin təyinatı, məqsədi, fəaliyyəti, enerji təhlükəsizliyi sahəsində keçirilən tədbirlər, planlaşdırılan işlər barədə ətraflı məlumat verilib.

Müdafiə naziri beynəlxalq sülhyaratma əməliyyatlarına Azərbaycanın dəstəyini, ölkəmizin hər zaman terrora və separatizmə qarşı qəti mövqe nümayiş etdirdiyini diqqətə çatdırıb.

Hər iki görüşdə ölkələrimiz arasındakı əlaqələrin genişləndirilməsi mövzusu müzakirə edilərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Latviyaya rəsmi səfəri

***İyulun 3-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Latviya Respublikasına rəsmi səfəri başlayıb.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyulun 8-dən Latviya Prezidenti vəzifələrinin icrasına başlayacaq hazırkı Müdafiə naziri cənab Raymonds Veyonis ilə görüşüb.

Rəsmi qarşılanma mərasimində protokola uyğun olaraq Müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Hər iki ölkənin Dövlət himni səsləndirilib.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Latviya Respublikasına rəsmi dəvətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Azərbaycanın Müdafiə naziri Latviya Prezidenti vəzifəsinə seçilməsi münasibətilə cənab Raymonds Veyonisi təbrik edib və ona bu



yüksək dövləti fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə regional təhlükəsizlik, Silahlı Qüvvələrin inkişafı və ölkələrimiz arasında hərbi əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib, bütün sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verildiyi vurğulanıb.

"Bizim ikitərəfli əməkdaşlıq sahəsində yaxşı təcrübəmiz mövcuddur. Müdafiə sahəsində əməkdaşlığımızın genişləndirilməsi qarşılıqlı surətdə Silahlı Qüvvələrimizin möhkəmlənməsinə kömək edəcəkdir", - deyə general-polkovnik Zakir Həsənov bildirib.

Cənab R.Veyonis öz növbəsində Latviyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi çərçivəsində həllinin tərəfdarı olduğunu xüsusi qeyd edib.

Sonra Cənubi Qafqaz regionunda hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlı qaçqın və məcburi köçkünlərin durumu, Azərbaycan ilə Latviya arasında qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Latviya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Raimonds Qraube iştirak edib.



* * *

İyulun 3-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Latviya Respublikası Xarici İşlər Nazirliyinin dövlət katibi cənab Andreys Pildeqoviçs arasında görüş olub.

Tərəflər Azərbaycan ilə Latviya arasında əməkdaşlığın inkişafından, o cümlədən hərbi sahədə əlaqələrdən məmnun olduqlarını bildirib, digər istiqamətlərdə də tərəfdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların nəticəsiz qalması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə əsasən, Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasının yerinə yetirilməməsi və digər məsələlər barədə Latviya tərəfinə məlumat verilib.

Müdafiə naziri ermənilər tərəfindən Azərbaycan xalqına qarşı Xocalı şəhərində törədilmiş dəhşətli qətliama dair bəyanatla çıxış etdiyinə görə, Latviya Seyminə və ümumilikdə Latviya xalqına minnətdarlığını bildirib.

Andreys Pildeqoviçs Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüququn normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllini Latviyanın daim dəstəklədiyini diqqətə çatdırıb. O, bir sıra beynəlxalq, eləcə də Avropanın müxtəlif qurumlarında keçirilən tədbirlərdə Azərbaycanın haqlı mövqeyinin Latviya tərəfindən daim dəstəkləndiyini və bundan sonra da bu mövqenin dəyişilməz qalacağını vurğulayıb.

Görüşdə beynəlxalq sülhyaratma əməliyyatlarında Azərbaycanın iştirakı, ölkələrimizin təhlükəsizliyinə təhdid olan beynəlxalq terrorizmə və separatizmə qarşı qəti mövqeyinin nümayiş etdirilməsi, o cümlədən qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair müzakirələr aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Cəbhə bölgəsindən reportaj*

# Səngər yolu Vətən yoludur

***Cəbhə xəttində yerləşən "N" hərbi hissəsinin gecəsi-gündüzü olmayan, Vətən torpağının keşiyini çəkən hərbçiləriylə söhbət aparmaq, arzu və istəklərini sözün gücünə çevirmək və məğrur görkəmlərini fotoaparatın yaddaşına köçürmək məqsədilə ezamiyyətə yola düşürəm.***

Günəşin al şəfəqləri hələ ətrafı tam bürüməyib. Axşamdan əsən güclü külək də, deyəsən, yavaş-yavaş sengiməyə başlayıb.

Yol boyu bağ-bağatları seyr etdikcə, sıralanmış qovaq ağaclarının sərinliyini duyduqca, gözlərimin önündə sehirli aləm, sirli mənzərə açılır...

Görünür, bu yerlərin insanları o qədər əməksevərdirlər ki, səhər açılar-açılmaz artıq iş başında olurlar. Ucsuz-bucaqsız yamyaşıl təsərrüfat sahələri insan əməyinin bəhrəsidir. Barlı-bərəkətli Qarabağ torpağı sayılan bu yerlərin gecəsinin və gündüzünün sakitliyini illərdir erməni işğalçılarının atəş səsləri pozub. Şəhidlərimizin ruhu dolaşan bu torpaqların müdafiəsində dağ vüqarlı Vətən oğulları "Hər səngər bir qaladır" deyərək mübariz dayanıblar.

Hərbi hissənin ərazisində sakitlik hökm sürür. Günün nizam qaydalarına uyğun olaraq əsgərlər sıraya düzülüb. Şəxsi heyət səhər yeməyinə hazırlaşır. Qeyd edim ki, bu hərbi hissə Silahlı Qüvvələrimizin ilk hərbi hissələrindəndir. Müharibə illərində bu hərbi hissənin kollektivi şərəfli döyüş yolu keçib. Bu gün də atalarının qəhrəmanlıq ənənələrini yaşadan yüzlərlə Azərbaycan oğlu içdiyi hərbi anda sadiq qalaraq, Vətənə namusla, vicdanla xidmət edir.

Hərbi hissənin zabiti mayor Vidadi Əhmədov bildirir ki, şəxsi heyətin döyüş əzmi, mənəvi-psixoloji və fiziki hazırlığı yüksək səviyyədədir. “Təmas xəttində mövqe tutan döyüşçülərimizin ayıq-sayıqlığı və fədakarlığı nəticəsində düşmənin hər hansı təxribatının qarşısı qətiyyətlə dəf edilir. Ulu öndərimizin bir kəlamını xatırlamaq istəyirəm: "Xalq öz ordusuna inanır. Ordu düşmənə layiqli cavab verməlidir". Bəli, bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə güclənən ordumuzun, peşəkar hərbçilərimizin, cəsarətli əsgərlərimizin sayəsində xalqımızın sakit-firavan həyatı təmin olunub”.

Həmsöhbətim mayor Vidadi Əhmədov 2000-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq məktəbini bitirərək əvvəlcə Murovdağda, sonra İraqda sülhməramlı qüvvələrin tərkibində və təhsil müəssisələ-



rində xidmət edib. O, "İraqın azadlığı uğrunda əməliyyatlarda iştirak etdiyinə görə" medalı ilə təltif olunub. Bir ildən artıqdır ki, xidmətini bu hərbi hissədə davam etdirir.

Növbəti həmsöhbətim mayor Cavid Fətəliyev tabor komandirinin şəxsi heyətlə iş üzrə müavinidir. O, Türkiyədə ali hərbi təhsil alıb. Hələ orta məktəb illərindən ixtisas və peşə seçimini edən Cavid doğulduğu Lənkəranın hərbçi oğullarıyla fəxr etdiyini bildirir.

- İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov Azərbaycanımıza şan-şöhrət qazandırıb. Mən görkəmli Azərbaycan generallarının, sərkərdələrimizin xidmətlərini öyrənir və özümə örnək götürürəm, - deyir zabit C.Fətəliyev. - İxtisas və komanda kursları təcrübəli zabit kimi yetişməyimdə böyük rol oynadı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yubiley medalları ilə təltif olunmuşam. “Qüsursuz xidmətlərə görə” 2-ci və 3-cü dərəcəli medallara layiq görülmüşəm. Ən böyük arzum torpaqlarımızı düşmən işğalından azad edərək, dinc, sülh dövründə ordumuzun peşəkarlığının daha da artırılmasına töhfə verməkdir.

Yanmış geniş otlaq sahəsi uzaqdan diqqətimi çəkir. Öyrənirəm ki, bu günlərdə erməni vəhşiləri təbiətə də divan tutublar. Böyük bir otlaq sahəsinə od vurub yandırıblar...

Hər tərəf torpağın ətrinə bürünüb. Küləklə geniş çöllərə yayılan bu ətir Vətən torpağının şirinliyini daddırır hər kəsə. Torpaq yolu, səngər yolu elə Vətən yoludur...

Bölük komandiri baş leytenant Nadim Əliyev cəsur döyüşçüləriylə birlikdə bizi qarşılayır. Gəlişimizin məqsədi onları daha da fərəhləndirir. Məlum olur ki, baş leytenant N.Əliyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 2008-ci il məzunudur. Keçən ilin martında Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhə xəttində zabit və əsgərlərlə görüşündə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalını şəxsən ona təqdim edib. "Cənab nazirin mənə medalı şəxsən təqdim etməsinin gənc zabit üçün nə demək olduğunu təsəvvür edirsinizmi? Bu görüş həyatımın ən sevincli anına, yaddaqalan hadisəsinə çevrildi və gələcək xidmətimdə məsuliyyətimi daha da artırdı", - deyə bölük komandiri zabit N.Əliyev qürurla danışır. - Bu gün Azərbaycan əsgərinin gücü qarşısında düşmən çox zəif görünür. Mən öz əsgərlərimlə fəxr edirəm. Hər bir komandir yalnız əsgərləriylə güclüdür. Tabeliyimdə olan əsgərlər silahların taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyərək istifadə qaydalarını öyrəniblər.

Həmsöhbətim onu da söyləyir ki, şəxsi heyət arasında xalqımızın milli-mənəvi dəyərləri, çoxəsrlik tarixə malik adət-ənənələri, yoldaşlıq, dostluq, silahdaşlıq, bir tikəni hamılıqla yarıya bölmək kimi ali insani keyfiyyətlər çox qorunur. “Bütün bunlar əsgərin döyüş və mənəvi-psixoloji hazırlığını şərtləndirən əsas amillərdəndir”.

Baş çavuş Vüsal Bağırov əsgəri xidmətini Qazaxda - ön xətdə keçib. Təcrübəli əsgər kimi könüllü olaraq yenidən hərbi xidmətə qayıdıb. O bu gün də düşmənlə üzbəüz mövqedə Vətən torpağının müdafiəsində ayıq-sayıqdır.

- Erməni işğalında olan torpaqlarımız azad edilməyincə, səngərdə olacağam və əlimdə silah döyüşəcəyəm, - deyir Vüsal.

Manqa komandiri kiçik çavuş Elvin Məmmədli də söhbətimizə qoşularaq döyüşçü yoldaşının dediklərini təsdiqləyir. - Bəli, bizi bu səngərdə yalnız bir məqsəd birləşdirir - düşməni məhv edib, onları torpaqlarımızdan qovmaq, Şuşamızı, Laçınımızı, Füzulimizi, Zəngilanımızı, əbədi, əzəli torpaqlarımız olan Qarabağımızı və digər ərazilərimizi azad edib, qələbəmizi birlikdə qeyd etmək arzusu...



Sonra döyüş postuna yaxınlaşıram. Düşmənlə çox yaxın məsafədə yerləşən mövqedə növbə çəkən əsgər Nihad Cavadzadə gözünü belə qırpmadan, diqqətlə müşahidəsini davam etdirir. O, cəld, çevik hərəkətləri ilə diqqət çəkir. 9 ayın əsgəri olduğunu bildirir. - Təlimlərdə silahların atış texnikasını dərindən öyrənmişəm. Hər zaman komandirlərimin məsləhət və tövsiyələrini dinləyir, tapşırıqlarını vaxtında yerinə yetirirəm, - deyir Nihad.

Digər postda döyüş növbəsi aparan əsgər Bəhruz Əfqanoğlu 18 aydır ki, hərbi xidmətdədir.

- Vətəni yağılardan qorumaq şərəfdir. Fəxr edirəm ki, düşmənlə üzbəüz mövqedə Vətənimizin keşiyində dayanmışam. Ali Baş Komandanın əmri ilə döyüşlərə atılmağa hər an hazıram. Tezliklə evə, əzizlərimin yanına qayıdacağam. Səngər üçün, döyüşçü yoldaşlarım, silahdaşlarım, komandirlərimdən ötrü darıxacağam.

Bəhruzla sağollaşıb döyüş mövqeyindən uzaqlaşıram...

Əsgərlərdən İlyas Şirinov, Əli Mehdizadə, Ruslan Fərhadov, Fərid Mirzəzadə, İsmayıl Əliyev və başqaları səngərlərdə Vətənimizin keşiyində möhkəm dayanaraq, torpaqlarımızı erməni qəsbkarlarından mərdliklə qoruyurlar.

Biz səngərlərdən geri dönəndə, artıq günəşin al şəfəqləri ətrafa səpələnmişdi...

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu"**

*Hərbi təhsil*

# Vətənə layiqli zabit olacaqlar

## Xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışı



"Yol - ömürdü, yol - həyat..." misrasını xatırlayıram. Niyə, hardan düşüb yadıma, bilmirəm...

Yol həm də məqsədin, arzunun, istəyin işığıdı. Böyük yola çatmaq üçün yollar keçməlisən, ürəyinə yatan, arzu-istəyinə uyğun yol seçməlisən, ürəyinin təpərinə güvənməlisən. Bir də hara getməli olduğunu öz içində sınağa çəkməlisən: bu yolun sonunacan getməyə gücüm çatacaqmı?!.

Hərbçilər məhz bu amalla yaşayır, arzularını seçirlər. Bu yol dövlətçilik yoludu, millətin yoludu. Bu peşənin müqəddəsliyini şərtləndirən ən vacib amillər də elə bunlardır.

Bürküdü. Bu bürkü adamları yolundan sapdıra bilmir. Bir niyyətin işığına toplaşanların baxışlarında qayğı, narahatlıq sezilmir, həyəcan sezilir. Şirin həyəcandı və bu şirin həyəcandan hamıya pay düşür...

Budur, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin 2015-ci il buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilir.

Mərasimdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələri - Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Ali Hərbi Dənizçilik və Təyyarəçilik məktəblərinin məzunları, Müdafiə Nazirliyinin rəhbərliyi, ictimaiyyətin nümayəndələri və məzunların yaxınları iştirak edirlər.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların və ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Azərbaycanın Dövlət himni könülləri coşdurur. Himn deyir ki, sevin Vətəni, Vətən naminə yaşayın, yaşantılarımızın adı Vətən olmalıdı...

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov çıxışında bu əlamətdar gün münasibətilə kursantları və onların valideynlərini Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edərək deyir ki, Azərbayan Silahlı Qüvvələrinin təhsil sistemi gündən-günə təkmilləşir, inkişaf edir. "Azərbaycanın ali hərbi məktəblərində təhsil sisteminin təkmilləşdirilməsi üçün aparılan islahatlar mühüm nəticələrini verməkdədir. Bu hərbi məktəblərin tədris, maddi bazası müasir tələblərə cavab verir. Burada Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə hazırlıqlı, vətənpərvər kadrların hazırlanması üçün hər cür şərait yaradılıb. Biz bundan sonra da bütün imkanlardan istifadə edərək ali hərbi məktəblərdə təhsil sisteminin təkmilləşdirilməsi işini davam etdirəcəyik. Hərbi təhsil sisteminin daim inkişaf etdirilməsi ordumuzun yüksək ixtisaslı zabit kadrlarla təmin olunmasının qarantıdır. Burada xidmət edən hər bir zabit, gizir, çalışan müəllimlər, təhsil alan kursantlar dövlətimizin adına layiq olmalı, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər", - deyir natiq.





Ümummilli lider Heydər Əliyev siyasətinin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğı nəticəsində ordumuzun daha da inkişaf etdiyini diqqətə çatdıran general-leytenant N.Osmanov vurğulayıb ki, 2014-2015-ci tədris ilində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini 473, Ali Hərbi Dənizçilik Məktəbini 18, Ali Hərbi Təyyarəçilik Məktəbini 131 nəfər bitirib.

O, kursantları diplom və leytenant hərbi rütbəsi almaları münasibətilə təbrik edir, onlara Azərbaycanın gələcəyi, ordumuzun, dövlətçiliyimizin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində yeni-yeni uğurlar arzulayır.

...Üç yaş kötüyü var və bu üç yaş kötüyü tarixin etibar edildiyi kötüklərdi; məzunlar (təbii ki, ən nümunəvi kursantlar) adından üç nəfər üzərində ulduz və aypara təsvirləri olan emblemləri bu yaş kötüklərinə vurur. Bu yaş kötükləri nə vaxtsa "daş kitabə" olacaq - xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin tarixini yaşadan "daş kitabələr".

Yaş kötüklərinə emblemlər vurulur. Bu da 2015-ci ilin adından tarixə bir məzun imzası!..

Döyüş bayrağının təhvili və qəbul edilməsi hamının ürəyini dağa döndərir. Dövlət bayrağı onsuz da qürurdu, sevgidi. Bu bayraq varolma, yaşam sənədidi. Hər bir vətəndaş bu bayrağın qürurla dalğalanmasının təşnəsidi...



Döyüş bayrağını təhvil verən kursant bayrağı öpüb and içir, təhvil alan kursant da onun kimi...

Ürəyimiz əzəldən bayrağımızın dalğalandığı ucalıqdı. Qarabağ ürəyimizin bir parçasıdı. Bayrağımızın ürəyimizin bir parçası olan Qarabağımızda dalğalanacağını bayrağı təhvil alan kursantın baxışlarında duyuram...

Məktəb birincisi olan Ələkbər İsazadə ilə söhbət edirəm. Gənc leytenantın həyəcanı təbiidir; ilkin zabit rütbəsi çiynindədir, yeni şərait - gənc ömrünün püxtələşmə mərhələsi gözləyir onu:

- Bu günü altı ildi gözləyirdim. C.Naxçıvanski adına Hərbi Liseyə daxil olan gündən. Dərsləri qiymət almaq xətrinə oxumamışam. Öyrənmək üçün oxumuşam, intizamlı olmuşam. Bu da nəticəsi, məktəb birincisi olmaqdan qürur duyuram. Davamçılarımızın da yaxşı oxuyacağına, intizamlı olacağına inanıram, - deyir əlaçı məzun.



Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov xüsusi təyinatlı məktəbləri fərqlənmə ilə bitirən məzunlara diplomları təqdim edir. Bu an gənc leytenantların yaddaşında həmişəlik qalacaq: oxudu, əziyyətlərə qatlaşdı, nizamnamələrin tələblərinə əməl elədi, bu da nəticə...

Ali hərbi məktəbləri fərqlənmə ilə bitirən məzunlara Azərbaycan Prezidenti İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından qiymətli hədiyyələr təqdim olunur...

Kursantların təntənəli keçidi də ürəkləri riqqətə gətirir...

"Yol - ömürdü, yol - həyat..."

Gənc zabitlərə hərbi xidmətə - Vətənimizin qorunmasına aparan yolda sonsuz uğurlar arzulayıram.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Publisistik düşüncələr*

# Qarabağ müharibəsi ədəbiyyatımızda

## Silahımızla qələmimizin hədəfi bir olmalıdır

***Yazar üçün bütün mövzular doğmadır. Təbiidir ki, yazıb-yaratmaq asan məsələ deyil. Bu sistemli zəhmət tələb edən bir işdir. Ürəyindən keçən bir əsəri yazıb başa çatdırmaq üçün yuxusuz gecələr keçirməli, əziyyətlərə qatlaşmalısan.***

Yaradıcı insan uğur qazanmaq üçün yazacağı mövzuya - istər müharibə mövzusu olsun, istərsə də başqa mövzular olsun - böyük diqqət ayırsa, əlbəttə, uğur qazanar. Əks-təqdirdə təsəvvür etdiyi zirvələri fəth edə bilməz. Müharibə mövzusu həssas mövzudur. Gərək ürəyinin istisini, qəlbinin hərarətini bu mövzuya verəsən.

Sirr deyil ki, müharibə mövzusunda da əsər yazarkən hər sözü yerində, məqamında işlətmək əsərin dəyərini qat-qat artırar. Əsərdə yerinə düşməyən hər hansı bir söz mənanı dəyişər, mövzuya xələl gətirər. Bu da sonda oxucunun əsəblərini tarıma çəkər.

Əgər 1993-cü ilin fevralında Ağdərədəki hospitalda yaralı zabitdən aşağıda qeyd edəcəyim sözləri eşitməsəydim, indi mən də illər sonra müharibədən yazan, danışan müəlliflərin bu mövzuya daha həssas yanaşmalı olduğunu qələmə almazdım. Mənə elə gəlir ki, oxucunun sözünə, fikirlərinə hörmətlə yanaşılmalıdır.

Soyuq bir qış günündə ön xətdən qayıtdıqdan sonra hospitalda müalicə olunan yaralı zabit və əsgərlərlə də görüşməyi qərara aldıq. Vaxt itirmədən Ağdərənin mərkəzinə yollandıq. Bir-bir palataları gəzib yaralılarla görüşür, onlardan hal-əhval tuturduq. Şirin sözlərlə də olsa, onların yaralarına məlhəm qoymaq istəyirdik. Palatalardan birinə daxil olanda ağır yaralanmış zabitlərdən biri jurnalist olduğumu biləndə üzümə boz-boz baxıb dedi:

- Əgər sən hospitalda yox, səngərdə yanımıza gəlsəydin, "of" demədən səni güllələyərdim.

Belə gözlənilməz "qarşılanmadan" çaşıb yerimdə qaldım. Bu ötkəm baxışlı zabiti ilk dəfəydi görürdüm. Axı, o məni niyə güllələmək istəyirdi? Hansı günahın sahibi idim? Bəs, güllələnmə "hökm"ünə səbəb nə idi? Bunu zabitdən soruşanda, əsəbi halda dedi ki, siz yazıçıları, jurnalistləri güllələmək lazımdır. Ağlınıza nə gəldi fikirləşmədən, düşünmədən, təhlil etmədən danışırsınız, yazırsınız. Bir müddət əvvəl radioda Şəhidlər xiyabanında hərbi andı qəbul edib cəbhə bölgəsinə yollanan əsgərlərə həsr olunmuş verilişə qulaq asırdım. Aparıcı jurnalist əsgərlərin and içmələrindən xeyli danışdı və sonda sanki sevinə-sevinə dedi:

- Baxın, bu oğullar Qarabağa yola düşür. Onlar cəbhə bölgəsinə torpaq uğrunda ölməyə, şəhid olmağa gedirlər.

Sizdən soruşuram, niyə efirdən elə bədbin sözlər danışırsınız? Niyə demirsiniz ki, bu oğullar Qarabağa döyüşməyə, vuruşmağa, torpaqlarımızı azad etməyə, düşməni öldürməyə gedirlər? Elə ağzınızı açan kimi ölümdən, şəhid olmaqdan danışırsınız. Bizim əsgərlər də elə zənn edirlər ki, sizin dedikləriniz doğrudur. Onlar Qarabağa yalnız ölməyə, şəhid olmağa gəliblər. Yaxşı olar ki, belə bədbin notlarla danışmayasınız. Belə qəm yüklü, kədər dolu sözlərinizlə əsgərlərimizi çaşdırırsınız. Əksinə, indi gərək sizin ağzınızdan od-alov yağsın. Ağır döyüşlər getdiyi bir vaxtda, əsgərlərimizi ruhlandıran verilişlər efirdə bir-birini əvəz eləməlidir. Hanı sizin sözünüzün kəsəri? Daim əsgərlərimizi döyüşə, vuruşa ruhlandırsanız, vətənpərvərlik ruhunda verilişlər hazırlasanız, daha yaxşı olmazmı? Bu gün bizim silahımızın da, qələmimizin də hədəfi bir olmalıdır. Hədəf isə torpaqlarımıza göz dikmiş erməni işğalçılarıdır.

Yaralı zabitin dediklərində böyük həqiqət var idi. Buna görə də döyüşçüyə heç nə demədim. Ona nə deyəcəkdim ki? Bir anlıq mənə elə gəldi ki, zabitin bu cür etirazı təkcə mənə qarşı deyil, ümumiyyətlə, yaradıcı adamlara üsyanı, hayqırtısıdır. Doğrudan da, sözündə haqlı idi.

Sözlərin yerində işlənməməsi, doğrudan da, həmişə mətndə bədii pintilik yaradır. Əsəri gözdən, dəyərdən salır. Bu yaxınlarda qəzetlərin birində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş əsgər haqqında məqalə oxudum. Məqalənin mətnində elə bir qüsur yox idi. Qüsur, xoşa gəlməyən hal onun başlığında idi. Müəllif yazısına qəribə bir başlıq qoymuşdu: "Ona ölüm yaraşırdı". Bu sözləri oxuyub bir anlıq fikrə getdim. Ölümün insana yaraşdığını ilk dəfəydi ki, oxuyurdum. Adətən, biz görmüşük və eşitmişik ki, adama boy-buxunu yaraşar. Yaxud təzəcə alıb əyninə geyindiyi kostyum yaraşıq verər. Və yaxud sevib-bəyəndiyi nişanlısı, həyat yoldaşı yaraşar. Daha ölüm yaraşmaz ki? Ölüm nə vaxtdan insana yaraşıq olub?

Bax, belə səpkili yazılar ədəbiyyata, oxucuya nə verəcək? Ona hansı müqəddəs hissləri aşılayacaq? Burada hansı ruhdan, hansı vətənpərvərlik hisslərindən danışmaq olar? Halbuki, hələ də müharibənin bitmədiyi, atəş səslərinin eşidildiyi günlərdə xalqımızı döyüş ruhuna, qələbə əzminə ruhlandıran əsərlər yazılmalıdır. Zabitin dediyi kimi nə qədər ki, torpaqlarımız işğal altındadır, müharidə bitməyib qələmimizlə silahımız eyni hədəfi vurmalıdır, eyni istiqamətə tuşlanmalıdır.

Öyrəndiyimiz kimi, ədəbiyyat həyatın bədii inikasıdır. Daim insanların mənəviyyatını zənginləşdirir, kamilləşdirir. Hələ ki, ədəbiyyata ədəbiyyatşünasların, nəzəriyyəçilərin verdiyi bu tərif dəyişilməyib, dəyərini itirməyib. Ədəbiyyat həyatı əks etdirərək öz axarı ilə, əvvəlki sürəti ilə yoluna davam edir. Əgər kimsə ədəbiyyatın sürətindən geri qalırsa, ləngiyirsə, gedən qatarın arxasınca baxırsa, burada ədəbiyyatın heç bir günahı yoxdur.

Müharibə mövzusunda yazılan bəzi əsərləri oxuyanda açıq-aydın hiss olunur ki, orada həyatın reallığından xəbərətər yoxdur. Bu günlərdə oxuduğum hekayədə kəşfiyyatçıların fəaliyyəti təsvir olunmuşdu. Müəllif yazır ki, kəşfiyyatçılar meşədə ocaq qalayıb, qazan asıb kələfur bişirirlər. Hekayə müəllifi gözəl təsvirlər yaratdığını zənn edir. Təsvirlərdə böyük bir səhvə yol verdiyini heç ağlına gətirmir. Bir qədər düşünsəydi, belə təsvirləri uydurub yazmazdı. Hiss olunur ki, onun hərbi qaydalardan xəbəri yoxdur. Bilsəydi, ən azından məlumatı olardı ki, kəşfiyyatçılar heç vaxt olduqları yeri nişan vermirlər. Həmişə gizli gəzib dolanırlar. Kəşfiyyatçıların prinsipi, şüarı belədir: "Görünmədən görmək - ölmədən dönmək". Xüsusi tapşırıq yerinə yetirən kəşfiyyatçı meşədə ocaq qalayıb arın-arxayın kələfur bişirərmi? Əlbəttə, yox. Belə yazılar nə həyat, nə də müharibə reallığını əks etdirir.

Söz yox ki, müharibə ədəbiyyatından barıt qoxusu gəlməlidir. Oxuduqca əsərin sətirləri arasından top-tüfəng vahiməsi hiss edilməlidir. Təsvir olunan səhnələr reallığı əks etdirməli, fantaziyadan uzaq olmalıdır. Düzdür, əslində bədii əsərdə fantaziya olmalıdır, amma qədərində.

Bu gün ədəbiyyat da bir əsgər kimi səngərdə olmalıdır. Onun silahı xalqımızı qələbəyə, döyüşə, torpaqlarımızı işğaldan azad etməyə ruhlandıran, gülədən də odlu-alovlu söz olmalıdır. Bu məqamda dahi rus yazıçısı Turgenevin ədəbiyyat haqqında dediyi bu sözləri xatırladım: "Elə tarixi dövr olur ki, ədəbiyyat bədii mənafelərindən daha döyük mənafelərə xidmət etməli olur".

Bu günlər ədəbiyyatımızın daha da böyük mənafelərə xidmət etməli olduğu zamandır.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***2 iyul 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 82 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Şıxlar, Şirvanlı, Qaraqaşlı, Sarıcalı, Cəvahirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***3 iyul 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 77 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Qızıloba, Ağdam rayonunun Şıxlar, Şirvanlı, Qaraqaşlı, Sarıcalı, Cəvahirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Cüdoçu hərbçilər gərgin mübarizə aparıblar

***Əlahiddə Ümumqoşun Ordusu üzrə hərbi qulluqçular arasında növbəti idman yarışı keçirilib. Bu dəfə cüdoçular öz güclərini sınayıblar.***

Naxçıvan şəhərində yerləşən İlham Əliyev adına Olimpiya İdman Kompleksində yeddi çəki dərəcəsində təşkil olunan yarışda cüdoçu hərbi qulluqçular birincilik uğrunda mübarizə aparıblar.

15 komandanın mübarizə apardığı birincilikdə qaliblər həm komanda hesabında, həm də şəxsi birincilikdə müəyyənləşdirilib.

Cüdo birinciliyində 60 kq çəki dərəcəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kiçik çavuş Asiman Yusifov, 66 kq çəki dərəcəsində əsgər Elməddin Əliyev, 73 kq çəki dərəcəsində əsgər Əmrah Məmmədov, 81 kq çəki dərəcəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu çavuş Məcid Rzayev, 90 kq çəki dərəcəsində leytenant Vüsal Məmmədov, 100 kq çəki dərəcəsində əsgər Paşa Nəbiyev, 100 kq-dan yuxarı çəki dərəcəsində mayor Kamran Əhmədov birinci yerləri tutublar.

2-ci yerin sahibləri isə 60 kq çəki dərəcəsində kursant Elşad Məmmədov, 66 kq çəki dərəcəsində əsgər Ərşad Vəliyev, 73 kq çəki dərəcəsində əsgər Vasif Rəhimov, 81 kq çəki dərəcəsində əsgər İsa Rzayev, 90 kq çəki dərəcəsində əsgər Elvin Nəcəfov, 100 kq çəki dərəcəsində əsgər Hikmət Hacıyev, 100 kq-dan yuxarı çəki dərəcəsində mayor Rafiq Allahverdiyev olublar.



3-cü yerə yiyələnənlər isə 60 kq çəki dərəcəsində əsgər Ümüd Mikayılzadə, 66 kq çəki dərəcəsində əsgər Yaqub Əliyev, 73 kq çəki dərəcəsində əsgər İsmayıl Surxayev, 81 kq çəki dərəcəsində əsgər Elvin Qəndayev, 90 kq çəki dərəcəsində baş leytenant Ziya Şıxəliyev, 100 kq çəki dərəcəsində baş leytenant Ceyhun Həsənov, 100 kq-dan yuxarı çəki dərəcəsində gizir Orxan Şofiyevdir.

Qaliblər ənənəyə uyğun olaraq Əlahiddə Ümumqoşun Ordusunun Komandanlığı tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Birinciliyə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının hakimləri nəzarət ediblər. Yarışdan sonra Muxtar Respublika Güləş Federasiyasının baş katibi Hikmət Hüseynov təəssüratlarını bölüşərək bildirib ki, yarış yüksək səviyyədə təşkil edildiyinə görə hərbi qulluqçular daha əzmlə iştirak edərək öz çəki dərəcələri üzrə ədalətli mübarizə aparıblar. "Burada idmançılar arasında istər təmiz qələbə ilə, istərsə də ki, xal hesabı ilə qalib gələnlər olub. Təbii ki, bu da onların birinciliyə daha səylə hazırlaşdıqlarını göstərir".

Əlahiddə Ümumqoşun Ordusunun fiziki hazırlıq və idman üzrə cavabdeh zabiti mayor Vahid Məmmədovun cüdo birinciliyi ilə bağlı dediklərinə görə, belə kütləvi idman tədbirlərinin keçirilməsi şəxsi heyət arasında fiziki və mənəvi dəyərlərin təbliği baxımından əhəmiyyətlidir.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 576
Nüsxə 4680